# Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq

Avropa İttifaqı və
Avropa Şurası

#StrongerTogether

Fevral, 2025

## AZƏRBAYCAN – ƏSAS NAİLİYYƏTLƏR

### Mediasiyaya müraciətin təkmilləşdirilməsi yolu ilə ədalət mühakiməsinin gücləndirilməsi

- Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) alətlərinə əsaslanan ekspert məsləhəti vasitəsilə **mediasiya sisteminin nəticələrinin daha yaxşı qiymətləndirilməsi üçün məlumatların toplanmasının təkmilləşdirilməsi.**

- "Ədalət Mühakiməsinin Keyfiyyəti – CEPEJ-in işi" mövzusunda Avropa Şurasının HELP kursunun azərbaycan dilində kontekstuallaşdırılması və mediatorlar üçün bələdçi kitabın hazırlanması vasitəsilə **hüquqşünas və mediatorların mediasiya üzrə peşəkar təlim resurslarına əlçatanlığının artırılması.**

- Ölkədə **potensial mediatorlara effektiv təlim keçmək və onlara mentorluq etmək** məqsədilə 20-dən çox təlimçi mediatorun bacarıqlarının artırılması.

---

### İqtisadi cinayətlərin qarşısının alınması və onunla mübarizə

- Proqramın tövsiyələrinə uyğun olaraq **üzərinə həbs qoyulmuş əmlakın idarə edilməsi üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi** və Cinayət Prosessual Məcəlləsinə müvafiq dəyişikliklərin qəbul edilməsi.

- Beynəlxalq standartlara və qabaqcıl təcrübələrə uyğun olaraq **korrupsiyanın qarşısının alınması** və onunla mübarizə tədbirlərinin həyata keçirilməsi sahəsində dövlət sektorunda çalışan əməkdaşlar üçün faydalı olacaq **təlim resurslarına çıxış imkanlarının artırılması.**

## Bərabərliyin təşviqi və ayrı-seçkiliyin qarşısının alınması

- **Nifrət nitqinə qarşı effektiv mübarizə aparılması məqsədilə** Avropa Şurasının Nifrət nitqinə qarşı mübarizə üzrə HELP kursunun Azərbaycan dilində təqdim edilməsi vasitəsilə hüquqşünaslar və müvafiq mütəxəssislərin **təlim resurslarına çıxış imkanlarının genişləndirilməsi.**

- Avropa Şurasının monitorinq orqanlarının nifrət nitqi və nifrət cinayəti ilə mübarizəyə dair tövsiyə və təlimatlarının Azərbaycan dilində yayılması vasitəsilə **dövlət qurumları, hüquqşünaslar və qeyri-dövlət maraqlı tərəflər arasında ayrı-seçkiliyə qarşı mübarizəyə dair Avropa Şurasının standartları haqqında daha geniş məlumatlılığın təmin edilməsi.**

---

## Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə

- Proqramın tövsiyələrinin həyata keçirilməsinə uyğun olaraq **məişət zorakılığı qurbanlarının daha yaxşı müdafiəsini** təmin etmək üçün **hüquqi bazanın təkmilləşdirilməsi.**

- Regional mentorluq proqramında iştirak etməklə **qadınların ədalət mühakiməsinə çıxışını artırmaq** üçün səlahiyyətləndirilmiş hüquqşünaslar, hakimlər və prokurorlar.

- Qadınlara qarşı zorakılıq və məişət zorakılığına dair azərbaycanca mövcud olan fərdi HELP kursunu hazırlamaqla **gender əsaslı zorakılıqla mübarizə** işində **hüquq-mühafizə orqanlarının təlim resurslarına artırılmış çıxış imkanları.**

Avropa İttifaqı və Avropa Şurası daha **güclü idarəetmə, qanunun aliliyi** və **vətəndaşların həyatının yaxşılaşdırılması** üçün birlikdə işləyir. 2014-cü ildə onlar Şərq Tərəfdaşlığı ölkələri üçün **"Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq"** proqramı adlı ümumi təşəbbüsə başlayıblar. Proqram, Avropa standartlarına uyğun olaraq, **ədalət mühakiməsinin gücləndirilməsi, iqtisadi cinayətlərə qarşı mübarizə, bərabərliyin və ayrı-seçkiliyə yol verilməməsinin təşviqi, qadınların ədalət mühakiməsinə çıxış imkanlarının artırılması və qadınlara qarşı zorakılıq əleyhinə mübarizə** üçün ölkələrin daxili islahatlarının həyata keçirilməsinə dəstək verir. Bu, benefisiar ölkələrin ehtiyyaclarına uyğunlaşdırılmış texniki yardım proqramı və Venesiya Komissiyası və Avropa Şurasının digər orqanları tərəfindən təqdim edilən xüsusi qanunvericilik ekspertizasına və siyasətə dair məsləhətlər aləti olan Çevik Cavab Mexanizmi vasitəsilə həyata keçirilir. 2023-2027-ci illəri əhatə edən proqramın hazırkı (üçüncü) mərhələsi əvvəlki mərhələlərdə əldə olunmuş nəticələr və irəliləyişlər əsasında qurulmuşdur.

**İşimiz haqqında daha ətraflı**

https://go.coe.int/VzS8G

Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

AVROPA İTTİFAQI

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Avropa Şurası tərəfindən birgə maliyyələşdirilir və icra edilir